
Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 176 (21.586)

21 sentyabr 2016-cı il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 20-də Rusiya Federasiyasının mülki müdafiə, fövqəladə hallar və təbii fəlakətlərin nəticələrinin aradan qaldırılması naziri Vladimir Puçkovun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 20-də Avropa İttifaqı-Azərbaycan Parlament Əməkdaşlıq Komitəsinin nümayəndə heyətini qəbul edib.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 20-də Belarus Respublikası Təhlükəsizlik Şurasının dövlət katibi Stanislav Zasın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Görüşdə ölkələrimiz arasında siyasi, iqtisadi, hərbi-texniki və digər sahələrdə qarşılıqlı faydalı əməkdaşlıqdan məmnunluq ifadə olunub.

## 2016-cı ilin yanvar-avqust ayları üzrə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafı

Muxtar respublikada 2016-cı ilin yanvar-avqust aylarında 1 milyard 602 milyon 760 min manatlıq ümumi daxili məhsul istehsal olunmuşdur ki, bu da 2015-ci ilin müvafiq dövrü ilə müqayisədə 1,4 faiz çoxdur.

Hər bir nəfərə düşən ümumi daxili məhsulun həcmi 2015-ci ilin müvafiq dövrü ilə müqayisədə 3,9 faiz artaraq 3593,6 manata çatmışdır.

* * *

Muxtar respublikada yaradılan ümumi daxili məhsulun tərkibində ilk yeri sənaye sahəsi tutur. Sənaye üzrə 690 milyon 988 min 800 manat həcmində məhsul istehsal edilmişdir ki, bu da 2015-ci ilin müvafiq dövründəki göstəricini 2,7 faiz üstələmişdir.

* * *

İnfrastruktur quruculuğu çərçivəsində cari ilin yanvar-avqust ayları ərzində muxtar respublikada əsas kapitala 628 milyon 260 min 800 manat həcmində investisiya yönəldilmişdir ki, bu da bir il öncəki göstəricidən 0,7 faiz çoxdur. Əsas kapitala yönəldilmiş investisiyaların 583 milyon 503 min 500 manatı və ya 92,9 faizi tikinti-quraşdırma işlərinin payına düşmüşdür.

* * *

2016-cı ilin yanvar-avqust aylarında informasiya və rabitə xidmətlərinin həcmi 32 milyon 992 min manata yaxın olmuşdur ki, bu da 2015-ci ilin müvafiq dövrü ilə müqayisədə 4 faiz çoxdur. Bu müddət ərzində mobil rabitə xidmətlərinin həcmi 27 milyon 260 min manat olmaqla, bir il öncəki göstəricini 1,9 faiz üstələmişdir.

* * *

Qeyd olunan dövrdə 266 milyon 35 min manat həcmində kənd təsərrüfatı məhsulu istehsal olunmuşdur ki, bu da 2015-ci ilin müvafiq dövründəki göstəricini 5,5 faiz üstələmişdir. Bu dövr ərzində muxtar respublikada diri çəkidə 12,8 min ton ət, 61,6 min ton süd istehsal edilmiş, 2015-ci ilin müvafiq dövrü ilə müqayisədə ət istehsalı 1,7 faiz, süd istehsalı 1,4 faiz artmışdır.

* * *

Əhali gəlirlərinin artımı davam edir. 2016-cı ilin yanvar-avqust aylarında muxtar respublikada əhalinin gəlirləri 2015-ci ilin müvafiq dövrü ilə müqayisədə 1,8 faiz artaraq 1 milyard 176 milyon 416 min 400 manat, onun hər bir nəfərə düşən həcmi isə 0,7 faiz yüksələrək 2637,7 manat təşkil etmişdir.

* * *

2016-cı ilin yanvar-iyul aylarında muxtar respublika iqtisadiyyatında bir işçiyə hesablanmış orta aylıq əməkhaqqının məbləği 409,7 manat təşkil etmiş və bu göstərici əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 4,3 faiz artmışdır.

* * *

Muxtar respublikada bank sektorunun normal fəaliyyəti təmin edilmişdir.

1 sentyabr 2016-cı il tarixə muxtar respublikanın banklarında açılmış bank hesablarının sayı 57273-ə çatmışdır ki, bunun da 50935-i və ya 88,9 faizi aktiv hesablardır. 2016-cı ilin yanvar-avqust aylarında açılmış 11380 bank hesabının hamısı aktiv hesablar olmuşdur.

Muxtar respublikada quraşdırılmış POS-terminalların sayı 1 sentyabr 2016-cı il tarixə 1170-ə çatdırılmışdır.

* * *

Muxtar respublikada iqtisadiyyatın dinamik inkişafı xarici ticarət əlaqələrinin genişlənməsinə müsbət şərait yaratmış, cari ilin yanvar-avqust aylarında muxtar respublikada 309 milyon 74 min 100 Amerika Birləşmiş Ştatları dolları həcmində xarici ticarət dövriyyəsi qeydə alınmışdır. İxracın həcmi son bir il ərzində 2 faiz artaraq 280 milyon 970 min Amerika Birləşmiş Ştatları dolları, idxalın həcmi 31 faiz azalaraq 28 milyon 104 min 100 Amerika Birləşmiş Ştatları dolları təşkil etmiş, 253 milyon Amerika Birləşmiş Ştatları dollarına yaxın həcmdə müsbət saldo yaranmışdır.

* * *

Təsərrüfat subyektlərinin kredit resurslarına çıxış imkanları davamlı olaraq yaxşılaşdırılmaqdadır. 2016-cı ilin yanvar-avqust aylarında muxtar respublikanın bank və kredit təşkilatları tərəfindən hüquqi və fiziki şəxslərə 24 milyon 314 min 400 manat məbləğində kreditlər verilmişdir.

* * *

2016-cı ilin yanvar-avqust aylarında muxtar respublikada bütün sığorta növləri üzrə daxilolmalar 4008 min manat olmuşdur ki, bu da 2015-ci ilin müvafiq dövrü ilə müqayisədə 0,4 faiz çoxdur.

* * *

Qeyd olunan dövrdə muxtar respublikaya 234 min 363 nəfər turist gəlmişdir ki, bu da 2015-ci ilin müvafiq dövründəki göstəricidən 4,5 faiz və ya 10181 nəfər çoxdur.

* * *

1 avqust 2016-cı il tarixə muxtar respublikada əhalinin sayı bir il öncəyə nisbətdə 4894 nəfər və ya 1,1 faiz artaraq 447104 nəfər təşkil etmişdir.

***Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin mətbuat xidməti***

## Məktəb psixoloqlarının fəaliyyəti müzakirə olunub

*Dünən Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi və Naxçıvan Müəllimlər İnstitutu tərəfindən "Məktəb psixoloqunun fəaliyyəti və qarşıda duran vəzifələr" mövzusunda konfrans keçirilib.*



Məktəb psixoloqlarının iştirak etdiyi konfransda Naxçıvan Muxtar Respublikasının təhsil naziri Məmməd Qəribovun "Məktəb psixoloqunun fəaliyyəti və qarşıda duran vəzifələr", Naxçıvan Müəllimlər İnstitutunun rektoru, professor Oruc Həsənlinin "Məktəb psixoloqu və müasir tələblər", həmin ali təhsil ocağının müəllimi Nüşabə Məmmədovanın "Məktəb psixoloqunun konsultasiyası", Naxçıvan Şəhər Təhsil Şöbəsinin metodiki kabinetinin müdiri, pedaqogika üzrə fəlsəfə doktoru Qızıllı Əliyevanın "Məktəbdə psixoloji xidmətin əsas məzmunu, vəzifələri və sahələri", Naxçıvan şəhər 9 nömrəli tam orta məktəbin müəllimi Limu Məmmədovanın "Məktəb psixoloqu necə işləməlidir?" mövzularında çıxışları olub.

Konfransda qeyd edilib ki, son illərdə muxtar respublikamızda ümumtəhsil məktəblərinin psixoloq kadrları ilə təmin olunması daim diqqətdə saxlanılıb, əksər ümumtəhsil məktəbləri ali təhsilli psixoloqlarla təmin edilib. Belə ixtisaslı kadrlar olmayan təhsil müəssisələrində isə təcrübəli müəllimlər Naxçıvan Müəllimlər İnstitutunda təşkil edilmiş praktik-psixoloq kursları keçərək həmin vəzifələrə təyin olunublar. Bütün ümumtəhsil məktəblərimizdə psixoloji xidmət təşkili, psixoloqların fəaliyyəti və əməyinin elmi şəkildə təşkili üçün psixoloji kabinet yaradılıb. Eyni zamanda məktəblərimizin əksəriyyətində psixoloji xidmətin əsas istiqamətlərini əks etdirən stend (guşə), psixoloji metodikalar dəsti, psixoloji ədəbiyyatlar və elektron daşıyıcılar mövcuddur.

Bildirilib ki, bu gün ümumtəhsil məktəblərində fəaliyyət göstərən psixoloqların üzərinə mühüm vəzifələr düşür. Məktəblilərin psixoloji durumunu izləmək, onları psixoloji olaraq imtahanlara hazırlamaq birbaşa məktəb psixoloqlarının vəzifəsidir. Psixoloqlar şagirdlərin dərsdə və şəxsi həyatda yaşadıqları uğursuzluq zamanı depressiyaya düşməməsi üçün məktəblilər arasında psixoloji iş aparmalıdırlar. İnternetin, sosial şəbəkələrin uşaqların həyatına sürətlə inteqrasiyası isə məktəb psixoloqlarının məsuliyyətini bir qədər də artırıb. Məktəbdə psixoloq kimi çalışmaq məsuliyyət tələb edən bir işdir. Həmin psixoloqun ayrıca jurnalı olmalı, burada onun hər bir uşaqla bağlı qeydləri öz əksini tapmalıdır. Elə məktəblər var ki, orada psixoloq yerindədir, amma psixoloji xidmət aşağı səviyyədədir. Məktəb psixoloqları çalışmalıdırlar ki, məktəblərdə müəllim-şagird, müəllim-valideyn, valideyn-uşaq arasında konfliktlər yaranmasın. Məktəb psixoloqu uşaqlarla vaxtaşırı söhbət aparmalı, valideynlərlə görüşməli, uşağın evdə yaşadığı problemdən də xəbərdar olmalıdır.

Vurğulanıb ki, bu gün məktəb psixoloqları yaş qrupları üzrə psixoloji iş aparmağı bacarmalı, psixoloji xidmət uşaqlar üçün bir cür, yeniyetmələr üçün başqa formada aparılmalıdır. Çünki onların problemləri yaşlarına görə müxtəlifdir. Onların yaş qrupuna görə metodik göstərişlər var. Davranış pozuntusu olan uşaq sinifdə atmosferi poza bilər. Ona görə də psixoloq həmin uşaqda psixoloji durumu öyrənməli, lazımdırsa valideynlə görüşməlidir. Psixoloqların bilikləri, uşaqlarla işləmək bacarığı lazımi səviyyədə olmalıdır.

Konfransın sonunda məktəb psixoloqlarına elektron və yazılı formada yaddaş kitabçaları və iş planları paylanılıb.

**Səbuhi HÜSEYNOV**

***Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondu avqust ayında əmək pensiyalarının maliyyələşdirilməsini vaxtından əvvəl başa çatdırmış, 10 milyon 135 min 351 manat pensiyaçıların şəxsi hesablarına köçürülmüşdür.***

## Naxçıvanda pensiyalar vaxtında ödənilir

Hesabat dövründə "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikası Qanununa əsasən, pensiya hüququ yaranmış 200 vətəndaşa əmək pensiyası təyin olunmuşdur. Yeni təyin olunan əmək pensiyaçılarına və istifadə müddəti başa çatan plastik kartların yeniləri ilə əvəzlənməsi üçün müvafiq müvəkkil banklara 3636 plastik kart hazırlanması üçün sifariş verilmişdir. Bu dövrdə 97 sosial sığorta şəhadətnaməsi sığortaedənlər vasitəsilə sığortaolunanlara çatdırılmışdır.

Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondu tərəfindən elektron sənəd mübadiləsinin daha da təkmilləşdirilməsi, informasiya-kommunikasiya texnologiyalarının tətbiqi nəticəsində idarəetmənin səmərəliliyinin artırılması istiqamətində tədbirlər davam etdirilmişdir. Hazırda fond tərəfindən təqdim olunan 20 elektron xidmətin 15-dən istifadə olunur.

Fond və onun yerli orqanları tərəfindən sığorta-pensiya qanunvericiliyi sahəsində təbliğat və maarifləndirmə işləri də ötən ay davam etdirilmişdir.

***Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun mətbuat xidməti***

**21 sentyabr Beynəlxalq Sülh Günüdür**

# Sülh sabitlik və inkişafın təməlidir

***Mahiyyətcə dinclik, əmin-amanlıq, qurub-yaratmaq, sosial, iqtisadi və mədəni inkişaf, insanların və insanlığın birlik və bərabərlik şəraitində yaşamasını özündə ehtiva edən sülh bəşəri məfhumdur. Sülh hər bir cəmiyyətin, ümumiyyətlə, bəşəriyyətin ən çox arzu etdiyi dəyərlərdəndir. Sülhün qorunması, insanların əmin-amanlıqda yaşaması, amansız müharibələrin, hər cür zorakılığın dayandırılması arzusu bütün tarixboyu bəşəriyyəti düşündürmüşdür. Bu mənada, əslində, sülhün günü olmur, çünki o, insanlığa hər gün lazımdır. Birləşmiş Millətlər Təşkilatı 1981-ci ildə 21 sentyabrın "Beynəlxalq Sülh Günü" kimi qeyd olunması barədə qərar qəbul etmişdir. Həmin tarixdən etibarən 21 sentyabr bütün dünyada "Beynəlxalq Sülh Günü" kimi qeyd olunur.***

Beynəlxalq Sülh Günü insanların sülh şəraitində yaşamaq hüququ ilə yanaşı, bütün insan hüquq və azadlıqlarının gerçəkləşməsini, hər bir istəyə yalnız sülh şəraitində çatmağın mümkünlüyünü təcəssüm etdirir. İnsanlar arasında sülh dəyərlərini yaymaq, sülh mədəniyyətini təbliğ etmək zəruridir. Ümumiyyətlə, sülh və sabitlik inkişafın təməlidir. Bu proses hər ölkədə və regionda, onun tarixindən, mədəniyyətindən və ənənələrindən asılı olaraq özünəməxsus şəkildə inkişaf etdirilir.

Ötən əsrin 80-ci illərinin sonlarından başlayaraq Ermənistanın Azərbaycana təcavüzü nəticəsində torpaqlarımızın 20 faizdən çoxu işğal olunmuş, 1 milyondan artıq soydaşımız öz doğma yurd-yuvalarından didərgin düşərək qaçqın və məcburi köçkünə çevrilmiş, minlərlə soydaşımız vəhşicəsinə qətlə yetirilmişdir. Təhsil və mədəniyyət ocaqlarımız, dini və tarixi abidələrimiz dağıdılmış, terrora məruz qalmışdır.

Ulu öndər Heydər Əliyev Azərbaycanda ikinci dəfə siyasi hakimiyyətə qayıtdıqdan sonra böyük müdriklik və uzaqgörənliklə qan tökülməsinin qarşısını almış, regionda sabitliyin yaranmasına nail olunmuşdur. Bu, dövlətimizin sülh arzusunun ifadəsi, həqiqi sülhün bərqərar olması üçün Vətəni hər cür müdaxilədən qoruyacaq və sülhün təminatı rolunda çıxış edəcək hərbi qüdrətə gedən yolun başlanğıcı idi. Ölkəmizdə atəşkəs əldə olunduqdan sonra ulu öndər beynəlxalq ictimaiyyətin diqqətini Ermənistanın Azərbaycan ərazilərinə hərbi təcavüzünə yönəltmiş, münaqişənin sülh yolu ilə həll olunması yolunda ardıcıl tədbirlər görmüşdür. Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası Ermənistan tərəfindən işğal olunmuş Azərbaycan ərazilərinin qeyd-şərtsiz azad edilməsi üçün 822, 853, 874 və 884 saylı qətnamələr qəbul etmişdir. Ancaq işğalçı ölkə indiyədək beynəlxalq hüququn tələblərini pozaraq işğal siyasətini davam etdirir.

ATƏT-in 1994-cü il Budapeşt, 1996-cı il Lissabon və 1999-cu il İstanbul sammitlərində münaqişənin dinc və siyasi yollarla həlli istiqamətində də bir sıra mühüm təkliflər irəli sürülmüşdü. Xüsusilə 1996-cı ildə ATƏT-in Lissabon zirvə görüşü zamanı ümummilli liderin siyasi uzaqgörənliyi və müdrikliyi sayəsində Azərbaycanın mövqeyi dünyanın 53 dövləti tərəfindən qəbul və müdafiə olunmuşdu. Ümummilli lider demişdir: ***"Biz zor işlədilməsinə əsaslanan düşmənçilik dünyasından əməkdaşlıq və tərəqqi dövrünə aparan tunelin axırında işıq görürük və bu yol ilə birlikdə, dünyanın bütün ölkələri və xalqları ilə əl-ələ verib getməyə hazırıq".***

Azərbaycan xalqı hər zaman sülhsevər olmuşdur. Bunu onunla izah etmək olar ki, tarixən vətənimizdə azərbaycanlılarla yanaşı, digər xalqların nümayəndələri də mehribancasına yaşamış və hazırda da yaşayırlar. Ölkəmizin yüksək tolerantlığa sahib olması indi bir çox ölkələr üçün əsl nümunədir. Eyni zamanda xalqımızın bu mental xüsusiyyəti aparılan dövlət siyasətinin də əsas prioritetini təşkil edir. Ulu öndərin rəhbərliyi ilə hazırlanan və 1995-ci ilin 12 noyabrında ümumxalq səsverməsi yolu ilə qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyasının preambula hissəsində "ümumbəşəri dəyərlərə sadiq olaraq, bütün dünya xalqları ilə dostluq, sülh və əmin-amanlıq şəraitində yaşamaq və bu məqsədlə qarşılıqlı fəaliyyət göstərmək" Azərbaycan dövlətinin ən ülvi niyyəti kimi təsbit olunmuşdur.

Ümummilli lider Heydər Əliyevin 2001-ci il 4 iyul tarixli Sərəncamı ilə 2001-2010-cu illər Azərbaycan Respublikasında "Sülh mədəniyyəti və dünya uşaqlarına münasibətdə qeyri-zorakılıq beynəlxalq onilliyi" kimi geniş qeyd olunmuşdur. Birləşmiş Millətlər Təşkilatının təşəbbüsü ilə elan olunan bu onilliklə bağlı hazırlanmış manifesti ilk imzalayan dövlət başçılarından biri də məhz ümummilli liderimiz Heydər Əliyev olmuş, ulu öndərimizin sülhün və əmin-amanlığın əldə olunması istiqamətindəki əvəzsiz xidmətləri bütün dünyada yüksək qiymətləndirilmişdir. Ulu öndərin 1999-cu ildə Beynəlxalq Atatürk Sülh Mükafatına layiq görülməsi faktı bunun bariz nümunəsidir.

Dahi şəxsiyyətin sülhsevər siyasəti bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Ölkə başçısının rəhbərliyi ilə Azərbaycan sürətlə inkişaf edərək Cənubi Qafqazın həm iqtisadi, həm də hərbi baxımdan ən güclü ölkəsinə çevrilmişdir. ***"Azərbaycan sülhün, təhlükəsizliyin qarantıdır"***, – deyən dövlət başçısının apardığı gərgin daxili və xarici siyasət nəticəsində dünya dövlətləri və nüfuzlu beynəlxalq təşkilatlar Azərbaycanın haqq işini dəstəkləyir, ölkəmizin ərazi bütövlüyünü tanıyırlar.

21 sentyabr – Beynəlxalq Sülh Günü dünyanın bir çox ölkələrində olduğu kimi, Azərbaycanda və onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında da geniş qeyd olunur. Təcavüzkar Ermənistan tərəfindən sülhün və sabitliyin pozulması səbəbindən muxtar respublikamız 20 ildən artıqdır ki, blokada vəziyyətində yaşayır. Lakin bütün bunlara baxmayaraq, Naxçıvan yaradılmış ictimai-siyasi sabitlik və əmin-amanlıq şəraitində inkişaf edir, yeni uğurlara imza atır. Aparılan düzgün siyasətin nəticəsidir ki, artıq Azərbaycan və onun Naxçıvan Muxtar Respublikası planetin ən təhlükəsiz guşələrindən biridir.

Bu gün torpaqlarımızı işğaldan azad etməyə qadir güclü ordumuz və inkişaf etməkdə olan müdafiə sənayemiz mövcuddur. Lakin buna baxmayaraq, Azərbaycan dövləti işğal altındakı torpaqlarımızın sülh yolu ilə azad edilməsinin tərəfdarı olduğunu dəfələrlə sübuta yetirmiş, sülhməramlı siyasətə sadiq qalmışdır. Çünki müstəqil Azərbaycan sülhün keşiyində duran, hər zaman qədim dövlətçilik ənənələrinə, eyni zamanda beynəlxalq hüququn hamılıqla qəbul edilmiş prinsiplərinə sadiq olan hüquqi dövlətdir.

**Naxçıvan Muxtar Respublikasının**
**İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman)**
**Aparatının mətbuat xidməti**

---

**Aktual söhbət**

# Naxçıvan Muxtar Respublikası referenduma tam hazırdır

***Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikası Konstitusiyasında dəyişikliklər edilməsi məqsədi ilə ümumxalq səsverməsi (referendum) keçirilməsi haqqında" 2016-cı il 26 iyul tarixli Sərəncamına uyğun olaraq, sentyabrın 26-da referendum keçiriləcəkdir. İki aya yaxındır ki, ölkəmizdə referenduma hazırlıq işləri görülür. Bəs Naxçıvan Muxtar Respublikasında vəziyyət necədir? Muxtar respublika referenduma hazırdırmı? Bu və bu kimi suallarımızı Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasının sədri Məhərrəm Qasımov cavablandırır.***

***– Məhərrəm müəllim, referenduma artıq az vaxt qalır. Referendumun keçirilməsinə hazırlığın vəziyyəti barədə məlumat verməyinizi xahiş edirik.***

– Referenduma hazırlığın ilkin mərhələsi seçici siyahılarının tərtib olunmasıdır. Yekun seçici siyahıları Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Seçkilər İnformasiya Mərkəzində çap olunaraq məntəqə seçki komissiyalarına çatdırılmışdır. Seçici siyahıları üzrə aparılmış dəqiqləşdirmələrdən sonra muxtar respublikada 271938 aktiv seçki hüququna malik seçici qeydə alınmışdır. Onlardan 4003 nəfəri ilk dəfə səs verən vətəndaşlardır. Seçicilərin 137576 nəfəri, yəni 50,6 faizi kişi, 134362 nəfəri, yəni 49,4 faizi isə qadındır. 2015-ci il parlament seçkiləri ilə müqayisədə 2016-cı ildə muxtar respublika üzrə seçicilərin sayı 3475 nəfər, yəni 1,3 faiz artmışdır.

Azərbaycan Respublikasının Konstitusiyasında dəyişikliklər edilməsi ilə bağlı referendumda 292 açıq və 24 qapalı olmaqla, 316 seçki məntəqəsi fəaliyyət göstərəcəkdir. Seçki məntəqələri üçün Seçki Məcəlləsi ilə tələb olunan şərait yaradılmışdır.

Məlumat üçün bildirim ki, referendumda istifadə olunan bülletenlər digər seçkilərdə istifadə olunan bülletenlərdən böyükdür. Təxmini hesablamalarımıza görə, bir seçici tərəfindən səsvermə kabinəsində seçki bülleteninin oxunması və ona işarə qoyulması 15-20 dəqiqə vaxt aparacaqdır. Bunu nəzərə alaraq seçki məntəqələrində səsvermə kabinələrinin və şəffaf seçki qutularının sayı əvvəlki seçkilərə nisbətən artırılmışdır.

Referendum üzrə təşviqat qruplarının referendumqabağı təbliğatlarının aparılması üçün şəhər və rayon mərkəzlərində açıq və qapalı yerlər müəyyən olunmuş, təşviqat qruplarının həmin yerlərdə seçicilərlə görüşlər keçirmələri üçün lazım olan bütün şərait yaradılmışdır.

2016-cı ildə muxtar respublikada fəaliyyət göstərən dairə seçki komissiyalarının tərkibi yenidən təsdiq olunduqdan sonra məntəqə seçki komissiyalarının da tərkibində əsaslı dəyişikliklər aparılmışdır. Belə ki, muxtar respublika üzrə seçkilərin hazırlanıb keçirilməsini təmin edən məntəqə seçki komissiyaları, ümumilikdə, 1752 nəfər üzvdən ibarətdir. Məntəqə seçki komissiyalarının tərkibində 173 nəfər xarici dil müəllimi təmsil olunur.

Bütün seçki komissiyalarının üzvləri üçün təlimlər keçirilmiş, referendum zamanı seçki komissiyalarının fəaliyyəti, rolu, görəcəkləri işlər barədə ətraflı məlumat verilmişdir.

***– Gözəgörünməyən mürəkkəblərdən bu seçkilərdə də istifadə olunacaqmı?***

– Bəli. Seçicini qarşılayan və barmağının mürəkkəblə işarələnməsini yoxlayan məntəqə seçki komissiyasının üzvü seçki məntəqəsinə gələn hər bir seçicini səsvermə otağının girişində salamlayır, seçicilərin şəxsiyyətini təsdiqləyən müvafiq sənədini yoxlayır, ultrabənövşəyi lampa vasitəsilə seçicinin sol əlinin baş barmağının dırnaq və dərisinin bir hissəsinin gözəgörünməyən mürəkkəblə işarələnib-işarələnmədiyini yoxlayır və yaqin edir ki, seçici səs verməyib. Əgər seçicinin barmağı artıq mürəkkəblə işarələnmişsə, komissiyanın üzvü ondan dərhal məntəqəni tərk etməsini tələb edir.

***– Əgər seçici barmağının mürəkkəblə işarələnməsindən imtina edərsə, bunun nəticəsi necə olacaq?***

– Barmağının mürəkkəblə işarələnməsinə etiraz edən seçiciyə mürəkkəbin orqanizmə heç bir ziyanı olmadığı barədə məlumat verilir. Seçici yenə də etiraz edərsə, səsvermə bülleteninin verilməyəcəyi izah edilir. Əgər seçici fikrini dəyişməzsə, ondan seçki məntəqəsini tərk etməsi xahiş olunur. Bu barədə seçici siyahısında "işarələnmədən imtina etdi" qeydi aparılır.

***– Seçici səs vermək üçün hansı sənədləri təqdim etməlidir?***

– Seçici səs vermək üçün aşağıdakı sənədlərdən birini təqdim etməlidir: Azərbaycan Respublikasının vətəndaşları şəxsiyyət vəsiqəsini, qaçqın və məcburi köçkün vətəndaşlar şəxsiyyət vəsiqəsi yoxdursa, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi tərəfindən müəyyənləşdirilmiş formalı vəsiqəni, həqiqi və ya müddətli hərbi xidmətdə olan hərbi qulluqçular zabitin şəxsi vəsiqəsi və ya hərbi biletini, barələrində həbs növündə qətimkan tədbiri seçilərək istintaq təcridxanalarında saxlanılan təqsirləndirilən şəxslər Ədliyyə Nazirliyinin Penitensiar Xidməti tərəfindən verilmiş təqsirləndirilən şəxsin şəxsiyyətini təsdiq edən sənədi, azadlıqdan məhrumetmə yerlərində və xüsusi müəssisələrdə cəzaçəkən məhkumlar Ədliyyə Nazirliyinin Penitensiar Xidməti tərəfindən verilmiş məhkumun şəxsiyyətini təsdiq edən sənədi.

***– Əgər seçici tələb olunan şəxsiyyəti təsdiq edən sənədi gətirməyibsə səs verə bilərmi?***

– Səsvermə prosesində yuxarıda göstərilən sənədlərdən başqa, digər sənədlərdən istifadə etmək olmaz. Seçici şəxsiyyətini təsdiqləyən müvafiq sənədi özü ilə gətirməyibsə, məntəqə seçki komissiyasının seçicini qarşılayan və barmağının mürəkkəblə işarələnməsini yoxlayan üzvü həmin seçiciyə bu halda səs verməsinin qeyri-mümkünlüyünü və tələb olunan şəxsiyyəti təsdiqləyən sənədlə gəlməsini izah edir.

***– Referendum bülleteni digər seçkilərdə tərtib olunan səsvermə bülletenlərindən fərqlənir. Xahiş edirik seçki bülleteninin doldurulma qaydasını izah edəsiniz.***

– Konstitusiyada referenduma çıxarılan 29 maddə üzrə təklif olunan dəyişikliklər səsvermə bülletenində ayrı-ayrılıqda əks olunmuşdur. Bu 29 maddə bülletendə alt-alta sıralanmış və hər bir maddənin qarşısında "hə" və "yox" cavablarının altında boş kvadratlar qoyulmuşdur.

Seçici oxuduğu hər maddənin qarşısındakı cavab variantlarından, yəni "hə" və ya "yox" cavablarından birinin altındakı boş kvadrata qələmlə müəyyən bir işarə qoyur və yaxud kvadratın kənarına çıxmayacaq şəkildə içərisini qələmlə qaralayır.

Seçici bülleteni doldurarkən səsinin etibarsız sayılmasını istəmirsə, hər maddənin qarşısındakı "hə" və ya "yox" cavablarından yalnız birini işarələməlidir. Əgər seçici "hə" və ya "yox" cavablarının hər ikisinə işarə qoyarsa və ya heç bir cavaba işarə qoymazsa o zaman o maddə üzrə səsi etibarsız hesab olunur.

***– Əgər seçici səsvermə bülletenini korlayarsa ona yeni bülleten veriləbilərmi?***

– Seçici səsvermə bülletenini korlayıbsa, ona yeni bülleten verilməsini xahiş edə bilər. Seçici korlanmış səsvermə bülletenini ona bülleten vermiş məntəqə seçki komissiyasının üzvünə qaytarmalıdır. Səsvermə bülleteninin verilməsinə məsul olan komissiya üzvü korlanmış səsvermə bülletenini seçicidən alır, onu yarıdan kəsməklə ləğv edir və korlanmış səsvermə bülletenləri üçün nəzərdə tutulmuş ayrıca zərfə qoyur. Bundan sonra seçiciyə yeni səsvermə bülleteni verilir. Hər bir korlanmış səsvermə bülleteni barədə ayrıca akt tərtib edilir.

***– Səsvermə günü müxtəlif səbəblərdən muxtar respublika ərazisində olmayan seçicilər necə səs verəcəklər?***

– Seçicilər siyahısına daxil edilmiş, lakin hər hansı səbəbə görə səsvermə günü seçki məntəqəsində səs vermək imkanı olmayan seçici səsvermə gününə 3 gün qalanadək müvafiq məntəqə seçki komissiyasında qeydiyyatdançıxma (səsvermə) vəsiqəsini ala bilər və həmin vəsiqə əsasında səsvermə günü olduğu ərazidəki seçki məntəqəsində səs verə bilər. Səsvermə vəsiqəsi müvafiq seçki komissiyası tərəfindən seçicinin ərizəsi əsasında seçiciyə və ya notariat qaydasında təsdiq edilmiş vəkalətnamə əsasında onun nümayəndəsinə verilir. Ərizədə seçicinin səsvermə vəsiqəsi almasının səbəbləri göstərilməlidir. Ərizə verildiyi gündən başlayaraq iki gün müddətində məntəqə seçki komissiyası dairə seçki komissiyasına müraciət edərək seçicinin əvvəl səsvermə vəsiqəsini alıb-almaması faktını araşdırmalıdır. Bir seçiciyə bir neçə səsvermə vəsiqəsinin verilməsi qadağandır.

***– Referendum günü səhhətinə görə və ya digər üzrlü səbəblərdən seçki məntəqəsinə gələ bilməyən seçicilər necə səs verəcəklər?***

– Səsvermə günü səhhətinə görə və ya digər üzrlü səbəblərdən seçki məntəqəsinə gələ bilməyən vətəndaşların daşınan səsvermə qutusu ilə səsvermə otağından kənarda səs vermək hüququ vardır. Səsvermə otağından kənarda səs vermək istəyən şəxslər səsvermə gününə qədər bu barədə məntəqə seçki komissiyasına yazılı və ya şifahi müraciət etməlidirlər. Bu halda onlara komissiya tərəfindən səsvermədə iştirak etmək imkanı yaradılır. Dairə seçki komissiyası səsvermə otağından kənarda səs vermək üçün məntəqə seçki komissiyasına edilmiş müraciətləri səsvermə gününə azı 12 saat qalmışadək təsdiq edir. Əgər seçici səsvermə otağından kənarda səs vermək üçün əvvəlcədən ərizə yazmayıbsa və yalnız şifahi müraciət edibsə, ərizəni onlara gəlmiş məntəqə seçki komissiyası üzvlərinin yanında yazmalıdır.

***– Referendumda müşahidə kameralarından istifadə olunması nəzərdə tutulurmu?***

– Bəli, muxtar respublikada fəaliyyət göstərən hər bir seçki dairəsinin 5 məntəqəsində olmaqla, cəmi 35 seçki məntəqəsində müşahidə kameraları quraşdırılmış, sınaqdan keçirilərək hazır vəziyyətə gətirilmişdir. Səsvermə günü həmin seçki məntəqələrində səsvermənin gedişini internet vasitəsilə izləmək mümkün olacaqdır.

***– Məhərrəm müəllim, Naxçıvan Muxtar Respublikası referenduma tam hazırdırmı?***

– Referendumun keçirilməsi üçün seçki məntəqələri tam hazır vəziyyətə gətirilmişdir. Həm seçki məntəqələrinin maddi-texniki bazası, həm də komissiya üzvlərinin peşəkarlığı imkan verir ki, referendum azad və demokratik şəraitdə keçirilsin. Seçicilərdən xahiş edirik ki, referendum günü seçki məntəqələrinə gələrək öz seçki hüquqlarını azad və demokratik şəraitdə həyata keçirsinlər. 26 sentyabrda hər birinizi seçki məntəqələrində gözləyirik.

*– Müsahibə üçün sağ olun.*

**Muxtar MƏMMƏDOV**



# İqtisadiyyat



*Muxtar respublikamızda özəl sektor çoxşaxəlidir və onun ölkə iqtisadiyyatındakı çəkisi sürətlə artır. Özəl sektorun ümumi daxili məhsuldakı payının artması sahibkarların fəaliyyətinə göstərilən qayğının göstəricisi olmaqla yanaşı, bu sektorun tərəqqisinə təkan verən mühüm strateji amildir. Məhz bütün bunların nəticəsi kimi, bu gün muxtar respublikada sahibkarlıq inkişaf dinamikasına malikdir və özəl sektor öz məhsulları ilə daxili bazarı təmin edir, eyni zamanda bu məhsulların ixrac potensialı ilbəil artır.*

*İstehsal müəssisələri*

## Gəmiqaya Bərəkət Ət Məhsulları Kompleksində həm keyfiyyətli məhsullar istehsal olunur, həm də əhaliyə nümunəvi xidmət göstərilir





Muxtar respublikada kənd təsərrüfatının prioritet sahələrindən sayılan heyvandarlığın inkişaf etdirilməsi diqqət mərkəzində saxlanılır. Bunun nəticəsidir ki, 2000-ci ildən ötən dövr ərzində Sahibkarlığa Kömək Fondu tərəfindən heyvandarlığın inkişafına 243 layihə üzrə 4 milyon 53 min manat vəsait sərf olunub.

Əhalinin əsas istehlak mallarına olan tələbatının ödənilməsi və idxaldan asılılığın aradan qaldırılması məqsədilə son illər muxtar respublikamızda həyata keçirilən ardıcıl və məqsədyönlü tədbirlər öz bəhrəsini verir, müxtəlif təyinatlı emal və sənaye müəssisələri həyata vəsiqə alır.

"Gəmiqaya Bərəkət Ət Məhsulları Kompleksi" Məhdud Məsuliyyətli Cəmiyyəti də dövlət qayğısından bəhrələnib, Babək qəsəbəsi ərazisində istehsal müəssisəsi üçün ayrılmış ərazidə 2012-ci ilin iyun ayından müasir layihə əsasında yeni ət məhsulları kompleksinin tikintisinə başlanılıb və 2013-cü ilin may ayında istifadəyə verilib. Kənd təsərrüfatı məhsulları istehsalının inkişafına xidmət edən infrastrukturun maddi-texniki bazasının möhkəmləndirilməsi məqsədilə fəaliyyətə başlayan bu müəssisə kənd təsərrüfatı məhsulları istehsalçılarının fəaliyyətinin stimullaşdırılması, yeni iş yerlərinin açılması istiqamətində həyata keçirilən tədbirlər sırasındadır.

Ümumi sahəsi 20 min kvadratmetr olan kompleksdə iribuynuzlu və xırdabuynuzlu heyvanların kəsim sexləri, kolbasa və sosiska istehsalı sahələri, soyuducu kameralar, iş otaqları, hazır məhsulların satışı mağazası istifadəyə verilib, kəsimə hazırlanan heyvanların saxlanılması üçün hər cür şərait yaradılıb. Ümumilikdə, müəssisənin yaradılmasına 3 milyon 248 min manat vəsait sərf olunub ki, bunun da 1 milyon 530 min manatı Sahibkarlığa Kömək Fondu tərəfindən ayrılmış güzəştli kreditdir.

Kompleksdə halal ət kəsimi həyata keçirilir. Burada istehsalın 80 faizi avtomatlaşdırılmış sistemlə fəaliyyət göstərir. İstehsal avadanlıqları standartlara cavab verən ən müasir qurğularla təchiz olunub. İstehsal olunan ət məhsulları uyğunluq və gigiyenik sertifikatlarla təmin edilib. Müəssisədə gün ərzində 100 baş iribuynuzlu, 250 baş xırdabuynuzlu heyvanların kəsimini həyata keçirmək mümkündür. Burada müxtəlif dondurucu temperatura malik 8 soyuducu kamera yaradılıb, məhsulların ticarət mərkəzlərinə çatdırılması məqsədilə 2 ədəd soyuducu yük yeri olan nəqliyyat vasitəsi alınıb. Müəssisədə iri doğranmış, paketlənmiş, çəkilmiş, eləcə də yarımfabrikat paketlənmiş ət məhsulları istehsal olunur. Müəssisə ildə 1500 ton dana əti, 70 ton çəkilmiş ət, 800 ton quzu əti, 700 ton sümüksüz ət, 80 ton ciyər məhsulu istehsal etmək potensialına malikdir. Onu da qeyd edək ki, kompleksdə yaradılan kolbasa istehsalı sahəsinin gündəlik istehsal gücü 2 tondur. İstifadə olunan xammalın mütəmadi olaraq laborator müayinədən keçirilməsi burada keyfiyyətli kolbasa istehsalına imkan verir.

Türkiyə istehsalı olan müasir texnoloji avadanlıqlar quraşdırılmış müəssisədə istehsal prosesinə mərkəzləşdirilmiş qaydada nəzarət təmin edilib. Həmçinin müəssisənin daim təzə ətlə təmin olunması üçün ayrı-ayrı rayonlarda fəaliyyət göstərən fermer və fərdi sahibkarlarla əlaqələr yaradılıb. İstehsal edilən məhsulun ayrı-ayrı ticarət obyektlərinə keyfiyyətlə çatdırılması məqsədilə alınmış soyuducu kameralı xüsusi avtomaşınlardan səmərəli istifadə edilir. "Gəmiqaya Bərəkət Ət Məhsulları Kompleksi" Məhdud Məsuliyyətli Cəmiyyətində 13 nəfər daimi işlə təmin olunub. İşçi və idarəetmə heyətinin peşəkarlıq səviyyəsinin artırılması üçün dövri olaraq seminarlar keçirilir, avadanlıq və cihazların işlədilməsi məqsədilə işçi heyət metodiki vəsaitlərlə təmin edilir.

Hazırda müəssisədə müxtəlif çeşidlərdə ət və ət məhsulları, hisə verilmiş və bişirilmiş kolbasa məmulatları, eləcə də sosiska istehsal olunur.

Burada ət və ya hazır məhsul laborator analizdən keçirildikdən sonra istehsala və ya satışa buraxılır. Xammal soyuducu anbarda mənfi 18 dərəcədə, hazır məhsul isə müsbət 8-10 dərəcədə xüsusi kameralarda saxlanılır.

Kompleksdə mövcud olan ət satışı mağazasında mal ətinin bir kiloqramı istehlakçılara 7 manatdan, dana və quzu ətinin bir kiloqramı 8 manatdan, qoyun ətinin bir kiloqramı 6 manatdan təklif olunur.

Muxtar respublika əhalisinin ət və ət məhsullarına olan tələbatının ödənilməsi ilə yanaşı, nümunəvi xidmət göstərilməsinə də əlverişli şərait yaradılıb. Belə ki, burada bir baş iribuynuzlu heyvanın kəsimi və doğranması 20 manata, xırdabuynuzlu heyvanın kəsimi və doğranması 10 manata istehlakçılara təklif olunur. Müəssisə ziyafət və digər mərasimlər üçün ət məhsullarının sifarişlərini də qəbul edir. Həmçinin muxtar respublikanın ayrı-ayrı bölgələrində yaşayan əhalidən mövcud bazar qiymətlərinə müvafiq olaraq iribuynuzlu və xırdabuynuzlu heyvanlar alınaraq kəsimə cəlb edilir. Nəticədə, daxili bazar yüksəkkeyfiyyətli ət məhsulları ilə təmin olunur. "Bərəkət" əmtəə nişanı ilə satışa çıxarılan ət və ət məhsulları alıcılar tərəfindən rəğbətlə qarşılanır. Ayrı-ayrı ticarət şirkətlərindən alınan sifarişlər də dad-tamı ilə seçilən bu yerli məhsula tələbatın çox olduğunu göstərir. Kompleksdə müxtəlif çeşidlərdə ət və ət məhsullarının istehsal olunması istehlakçılara seçim imkanı yaradır. İstehsal olunan keyfiyyətli ət məhsulları əhalinin və dövlət tərəfindən təminatı həyata keçirilən qapalı müəssisələrin tələbatını tamamilə ödəyir. Gələcəkdə müəssisədə istehsal olunan məhsulların ölkəmizin digər regionlarında satışı və xarici bazarlara çıxarılması da planlaşdırılır.

Ət məhsulları kompleksində olarkən ayrı-ayrı rayonlardan kəsim üçün iribuynuzlu və xırdabuynuzlu heyvanlar gətirmiş fermer və fərdi sahibkarlardan Qabil Babayev, Əsgər Hüseynov, Mahir Ələkbərov, Niyazi Qədimovla söhbət etdik. Onlar qeyd etdilər ki, son illər muxtar respublikamıza gətirilən və lizinq yolu ilə sahibkarlara verilən damazlıq düyələr ətlik və südlük cins mal-qaranın artımına səbəb olub. Kəsimə verilən ətlik cins mal-qaranın orta hesabla hər birinin 500-600 kiloqram əti olur ki, bu qədər əti də hər hansı bir yaşayış məntəqəsində və ya rayon mərkəzində 2-3 günə satıb qurtarmaq olmur, nəticədə, məhsul zay olurdu. Belə bir kompleksin istifadəyə verilməsi ilə problem aradan qaldırılıb, sahibkar istədiyi vaxt təsərrüfatında olan ətlik iribuynuzlu və xırdabuynuzlu heyvanları kompleksə təhvil verib pulunu nağd alır. Eyni zamanda sahibkar əgər, sadəcə, kəsim üçün müraciət edibsə, kəsilən heyvanın əti müəssisənin balansında olan xüsusi maşınlarla sifarişçilərin ünvanlarına çatdırılır. Kompleksdə heyvanların kəsilməsi sanitar-gigiyenik qaydalara ciddi əməl olunmaqla həyata keçirilir.

Firma mağazasının xidmətlərindən istifadə edən Nadir Əzizov, Samir Həsənov, Nurəddin Şirzadov və başqaları ət məhsulları kompleksinin istehsal və xidmət baxımından yüksək şəraitə malik bir müəssisə olduğunu qeyd etdilər. Bu müəssisədə istehsal olunan müxtəlif çeşiddə keyfiyyətli ət və ət məhsullarından razılıqlarını bildirdilər.

✍ **Kərəm HƏSƏNOV**

## Qarğıdalı biçini davam etdirilir



*Naxçıvan Muxtar Respublikasında əvvəllər qarğıdalı bitkisindən heyvandarlıqda və yeyinti sənayesində istifadə olunub.*

Son illər qarğıdalı bitkisinin əkilib-becərilməsinə maraq artıb. Daha çox fərdi təsərrüfatlarda əkilib-becərilir. Bir neçə ildir ki, qarğıdalı Şərur rayonunda kənd təsərrüfatının üstün istiqamət verilən sahələrindən birinə çevrilib. Cari təsərrüfat ilində qarğıdalı əkini sahələri əvvəlki illə müqayisədə iki dəfə artıb. Belə ki, ötən il 624 hektar sahədə qarğıdalı əkilmiş, bu sahələrdən 2500 tondan çox məhsul götürülmüşdü. Bu il əkin sahələri 1119,21 hektara çatdırılıb. Rayonun Çərçiboğan, Xanlıqlar, Oğlanqala, Düdəngə, Zeyvə, Çomaxtur, Yengicə yaşayış məntəqələrində daha çox qarğıdalı əkilib. Əkinlərə aqrotexniki qulluq göstərildiyindən sahələrdə bol məhsul yetişdirilib. Rayon İcra Hakimiyyətindən aldığımız məlumata görə, 137 hektar sahədən 1274,1 ton məhsul tədarük edilib. Bu isə orta hesabla hər hektardan 93 sentner məhsul deməkdir. Hələlik sahələrdə 4 kombayn işləyir. Məhsulun vaxtında və itkisiz toplanılması üçün "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyəti Şərur rayon bazası öz köməyini əsirgəmir.

Məlumat üçün bildirək ki, qarğıdalı bitkisi taxıllar fəsiləsinə aid olmaqla ondan müxtəlif məqsədlər üçün istifadə olunur. Bu bitkidən dən və silos alınır. Dənindən un, yarma və konserv (şəkərli qarğıdalı) hazırlanır. Sənayedə isə qarğıdalı dənindən nişasta, etil spirti, dekstrin, şəkər, bal, yağ, E vitamini, askorbin və qlutamin turşuları alınır. Qarğıdalı bitkisinin gövdəsindən, yarpaq və qıçalarından kağız, linoleum, süni probkalar, plastik kütlə və digər məhsullar hazırlanır.

Qarğıdalı dəninin tərkibində yağ, zülal və fitin maddəsi vardır və vitaminlərlə zəngindir. Bu bitki yağı insan orqanizmi üçün ən əhəmiyyətli qida məhsuludur. Xalq təbabətində müxtəlif xəstəliklərin müalicəsində istifadə edilir. Qarğıdalı orqanizmi toksinlərdən və digər zərərli maddələrdən təmizləyir, immun sistemini gücləndirir, ürək və onkoloji xəstəliklərin müalicəsinə müsbət təsir göstərir. Sinir və mədə-bağırsaq sistemləri üçün çox xeyirlidir. Qarğıdalı saçağının dəmlənib içilməsi də bəzi xəstəliklərin müalicəsində faydalıdır.

Onu da qeyd edək ki, "Gəmiqaya Bərəkət Qida Məhsulları" Məhdud Məsuliyyətli Cəmiyyətində 2012-ci ildə kəpəkli çörək istehsalına başlanılıb. İnsan sağlamlığı üçün vacib elementlərlə zəngin olan kəpəkli çörək yüksəkkeyfiyyətli qida məhsulu kimi alıcılar tərəfindən rəğbətlə qarşılanıb. Elə bunun nəticəsidir ki, satışa çıxarılan kəpəkli çörəyə tələbat get-gedə artıb, ötən dövr ərzində kəpəkli çörək istehsalına keçid tam təmin olunub. Cari ildə də alıcı tələbatının öyrənilməsi və buna uyğun olaraq yeni çeşiddə çörək istehsalı diqqət mərkəzində saxlanılıb, kəpəkli unla qarğıdalı ununun qarışığından hazırlanmış qarğıdalı çörəyi istehsalına başlanılıb.

***Şahbuz rayonunda son illər, konkret olaraq, cari ilin ötən dövründə həyata keçirilən məqsədyönlü tədbirlər belə deməyə əsas verir ki, bu dağlıq zonada sosial rifahın, yaxşı gün-güzəranın təmin olunmasında dövlət qayğısı başlıca amilə çevrilib.***

## Aqrar sahəyə qayğı bəhrələrini verir

Davamlı xarakter alan, hər addımda müşahidə edilən və bəhrələri görünən belə qayğı isə bölgə sakinlərinin ən qiymətli sərvət olan torpağa bağlılıqlarını daha da gücləndirib. Torpaq isə ona baş əyənə, qədrini bilənə, onu qoruyana heç vaxt borclu qalmır.

Şahbuz Rayon İcra Hakimiyyətindən aldığımız məlumata görə, rayonda, əsasən, əkinçilik, heyvandarlıq, arıçılıq və bağçılıq inkişaf etdirilir. Aqrar sahənin inkişafı məqsədilə şəxsi mülkiyyətdə olan torpaqlardan səmərəli istifadəyə dövlət qayğısı gücləndi. Ötən il bu ilin məhsulu üçün 1133 hektar sahədə payız əkini keçirilib, cari ilin yazında 204 hektar sahədə yaz əkini aparılıb. 1337 hektar taxıl əkini sahəsindən 3835 ton məhsul götürülüb.

Cari ildə 463 hektar sahədə kartof, 286 hektar sahədə tərəvəz, 242 hektar sahədə dənli-paxlalı, 11 hektar sahədə bostan bitkiləri və 280 hektarda digər bostan məhsulları əkilib. Sahələrdə bol məhsul yetişdirilib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2012-ci il 14 fevral tarixli Sərəncamı ilə təsdiq olunmuş və uğurla başa çatmış "2012-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı"nın icrası öz bəhrələrini verib. Bu istiqamətdə rayonda həyata keçirilən tədbirlər meyvə və tərəvəz istehsalının artımına müsbət təsir göstərib. Məlumat üçün bildirək ki, adıçəkilən proqramın uğurla icra olunması hesabına rayonda bağ sahələri 60,9 hektar artırılıb. Üç nəfər isə bu sahəni inkişaf etdirmək üçün kredit götürərək 15 hektar sahədə bağ salıb.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 8 fevral tarixli Sərəncamı ilə təsdiq olunmuş "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı" isə rayonda bu sahəni inkişaf etdirmək üçün daha bir stimul olub. Proqramın icrası istiqamətində cari ilin ötən dövründə xeyli iş görülüb, meyvə bağlarının sahəsi genişləndirilib. Cari ildə yaşıllaşdırma tədbirləri davam etdirilib, 4,7 hektar sahədə yeni bağ salınıb, 0,4 hektar sahədə bərpa işləri aparılıb, 4860 ədəd yeni meyvə tingləri əkilib.

**Xəbərlər şöbəsi**



# Əlincəyə gedən yol

## *Birinci yazı*

Adətən, hər hansı bir yazını yazmaq üçün fikrini toplamaq, əlinin altında olanları bir yerə cəmləmək və yaxud da qaranlıq, şübhəli çalarları kimlər vasitəsiylə dəqiqləşdirmək insan üçün, təbii ki, həqiqi yazı adamı üçün önəmli şərtlərdən biridir. Amma elə yazılar var ki, onun üçün fakt axtarmağa, kimlərdənsə nə isə soruşmağa ehtiyac olmur. Çünki o yazını ürəyin hökmüylə yazırsan. Və yazılan da ağılın kəsdiyi, bir də göz yaddaşında olanlardı. İndi özünüz təsəvvür edin, ürək hökm edir, ağıl hərəkətə gələrək dəyərləndirir və gözün yaddaşında olanları birlikdə kağız üzərinə çıxarırlar. Mən şəxsən bu cür yazıları həm ovqatın, həm də ruhun yazısı kimi, diktəsi kimi qəbul edirəm. Kim necə düşünür-düşünsün, ovqat yazısı uzunömürlü olmaya da bilər. Lakin o yazılar qısa ömürlərini gözləmə mövqelərində daha da uzadırlar. Həmin ovqat hansı ki o yazının yaranmasına səbəb olub, yenidən sahibinin qapısını döyəndə, bax həmin o anda gözləmə mövqeyində olan yazı yenidən boy göstərir, yenidən çiçək kimi açılır… Deməli, sözün ölməməsi fikri burda özünü bir daha təsdiq etmiş olur!..

Bəli, neçə gündür ki, səfərdən qayıtmışam. Amma bəri başdan deyim ki, qayıdıb gələn cismimdi, ruhum orda qalıb. Və onu da deyim ki, bu yazını oxuyan və sonra da məni qınamaq, nədəsə suçlamaq istəyənə bəri başdan deyirəm ki, mən bu yazını yazanda başımın üstündə dayanan Allah idi, ürəyimdəki də Allah xofu… və nəhayət, bu yazını da elə mənə yazdıran Allahın diktəsiydi. Onun kökləndiyi varlığın sözün içində söz axtara-axtara vəsf etmək, tanıtmaq israrıyla vərəqləri çevirirdi. Elə həmin o çevirmələrin içərisində doğulurdu bu yazı. Amma gec də olsa, üzrxahlıq edim ki, mən yazıya göy üzündən başlamaqda gecikdim. Gərək ordan başlayaydım. Axı göy üzü Allaha daha yaxındı. Və mən Bakı hava limanından göy üzünə qalxanda nələr keçirdiyimi bir anlıq unudub nələrə doğru getdiyimi gözümün önündə canlandırmaq istədim, amma bacarmadım. Çünki Bakıda, ölkənin paytaxtında eşitdiklərim, iqtidar-müxalifət mətbuatından oxuduqlarım düşüncələrimdə bir xaotiklik yaratmışdı. Hər şey qarışmışdı bir-birinə. Nəyin ağ, nəyin qara olduğunu ayıra bilmirdim, seçə bilmirdim. Üstəlik həm də özümün bu getdiyim ünvanla sonuncu əlaqənin arasında 24 illik bir məsafə var idi. Mən son dəfə Naxçıvana 1992-ci ildə getmişduim. Ona görə də az qala əsrin dörddəbiri ölçüsündə olan bu zaman kəsiyində muxtar respublikada baş verənlərin, dəyişənlərin bir neçə dəfə televiziya versiyalarını görmüşəm, başqa heç nə…

Bəli, göy üzü Allaha daha yaxındı. Və mən təyyarədə olarkən öz-özümə düşünürdüm ki, əgər ötən əsrdə getdiyim yolu, yəni Naxçıvana qatarlarla olan səfərimi bərpa etmək mümkün olsaydı, mən indi Arazboyu gedirdim. Çayın 3 kilometr ərazidə bir-birinə qovuşmadan yanaşı axan iki hissəsini, dupduru və bulanlıq çöhrələrini müşayiət edirdim. Neyləyim ki, indi ümid göy üzünə qalıb və mən də buludların üstüylə uçuram Naxçıvana. Onu da etiraf edim ki, təyyarə heç mənlik deyil. Başqa yol da yoxdu!..

Hə, buludların üstüylə uçuruq. Ağır və tutumlu hava gəmisində olan sərnişinlərin, demək olar ki, 99,99 faizi Naxçıvan sakinidi və yaxud orada doğulanlardı. Cəmi bir neçə nəfər bu torpağa ilk dəfə üz tutur. Elə bu üç-dörd nəfərdi Naxçıvandan danışan. Digərləri isə özləriylə, ailələriylə, problemləriylə məşğuldular. Mən təzadlı, üstəlik, bir az da adamı gərginlikdə saxlayan düşüncələrin içərisində, daha doğrusu, bu hava gəmisində vaxtın durduğunu hiss etdim. Bir anlıq elə bildim ki, təyyarə uçmur, elə bir nöqtədə dayanıb. Düzünü deyim ki, cəsarət edib yanımdakılardan da heç nə soruşmurdum. Amma bəxtimdən yanımda əyləşən sərnişin üzünü mənə tərəf çevirib bir aşağı baxın dedi. Daha dayanıb gözləmək mümkün deyildi. Özümü toparlayıb üzüaşağı baxdım. Uzun bir yol gördüm.

Məni aşağı baxmağa həvəsləndirən həmin o sərnişin yenə bir iddialı, bir fəxarət hissi ifadə edən tonda:

– Şəhərin yoludu – Naxçıvanın!

… Və burdan başladı yazım. Təyyarə hava limanına enəndə artıq içimdə bir yazı dünyaya gəlmişdi. O yazının adı "Yol" idi. Və həm də o yazının özü də elə yolu ifadə etmək üçün, yolu göstərmək, tanıtmaq, təqdim etmək üçün doğulurdu. Bəlkə də, artıq doğulmuşdu. O zaman mən onun fərqinə vara bilməmişdim. Elə ki, bilgisayara diktə etməyə başladım, onda gördüm ki, mən hazır bir yazını gözümün önündəki vərəqlərdən oxuyuram. O yazı…

*Açıram mən səhəri*
*Qolların arasında*
*Görürəm mən özümü –*
*Xoşbəxtlər sırasında –*
*Ümid!*

*Bütün ağrı-acılar*
*Durur dizdən aşağı…*
*Xoşbəxtliyin özü də indi*
*Bizdən aşağı –*
*Ümid!*

*Bu qurban səhərinin*
*İlk və son qurbanı tək*
*Naxçıvan şəhərinin*
*Dan üzünü gözə çək –*
*Ümid!*

*Qoy alışsın könlümün*
*Hər nöqtəsində bir şam.*
*Ümidimlə qol-boyun*
*Yatdım, durdum bu axşam –*
*Ümid!*

* * *

Bu da Naxçıvanın hava limanı. Mən ətrafa diqqət yetirirəm. Səliqə-sahmana söz ola bilməz. Amma burda mənə xüsusilə xoş gələn bir detalı mütləq yazmalıyam. Hava limanının binasında, həm kassaların önündə, həm gözləmə zallarında kiminsə çıxarıb siqaret çəkdiyini görmək mənə nəsib olmadı. Üstəlik, geyimlərindən, hərəkətlərindən, adamlara münasibətlərindən bu hava limanının məmurları olduğu bilinən insanlar da siqaretlərini limanın çölündəki zibil qutusunun yanında çəkirdilər. Sonra siqareti atıb içəriyə qayıdırdılar. Bunun əksini isə Bakıda, elə uçduğum gün müşahidə etmişdim. Hava limanının özündən razı bir məmuru barmaqlarının arasındakı tüstülənən "Malboro" siqaretinin külünü hara çırpacağını bir anlıq təxmin etməyə çalışdı, sonra qərar verə bilmədi və lap sonra da onu biletlər satılan kassanın bir küncündə yerə atdı…

Zənnimcə, bu, adi bir fakt olsa da, amma eyni müstəvi üzərində tamam fərqli bir formada ortaya çıxdı. Bizdə, sərnişində fərqli ovqat yaratdı, düşüncə formalaşdırdı. Və mən ilk qarşılaşdığım bu faktdan özümə nəticə çıxardım. Bildim ki, qonaq olsam da, siqareti harda yandırıb çəkəcəyimi bilib yadımda saxlamalıyam. Sonra balaca əl çamadanımı götürmək üçün hava limanının sərnişinlərin çamadanlarını və digər yüklərini onlara çatdıran dairəvi fırlanan eskalatorun yanında dayanmış adamlara yaxınlaşdım. Bu vaxt sərnişinlərdən biri kənarda dayanıb müşahidə edən liman işçisini səslədi. Onun narazılığı bağlamasının büküldüyü kağızın bir az cırılmasından idi. Elə yerindəcə məsələ araşdırıldı, yükləri təyyarədən eskalatora doğru yönəldən nümayəndə xəbərdarlığını aldı və yük sahibindən üzr istədi. Bu faktı da elə-belə yazmıram. Demək istəyirəm ki, burda haqqını tələb etmək və üzr istəmək mədəniyyətinin də şahidinə çevrildim. Anladım ki, heç kim heç kimə borclu qalmır və heç kim də özünü başqa birisindən üstün tutmur. Hamı vətəndaşdı və hamı da öz vətəndaş missiyasından çıxış edir… Nə isə…

Bu da hava limanının həyəti… Müştəri gözləyən taksilər heç kimin üstünə qaçmır… qışqırıb heç kimi heç hara səsləmir. Sakitcə dayanıb öz müştərilərini gözləyirlər. Onların ətrafında isə xidməti köynəklərdə olan adamlar müxtəlif işlər görürlər. Bizi qarşılayan sürücüdən nə baş verdiyini soruşuram. Çox təmkinlə, heç nə olmamış kimi cavab verir:

– Ciddi bir məsələ yoxdu. Sadəcə, tez-tez abadlıq işlərinə diqqət yetirilir. Havanın, Günəşin təsiriylə solan, keyfiyyətini itirən işarələr yenidən rənglənir. Ağacların, kolların dibləri boşaldılır…

Onun söylədiklərini dinləyə-dinləyə dörd tərəfə baxıram. İnanın ki, (bəzən yaşlı adamlar hələ də bu ifadədən istifadə edirlər – Ə.M.) yerdə diş qurtlamağa, yəni təmizləməyə bir çöp də yoxdu. Dörd tərəf adamın üzünə gülür. Ölkəmizin bir-iki hava limanı gəlib keçdi gözümün önündən. Təəssüf ki, bu səliqəni onların heç birində görməmişəm.

Daxilən yavaş-yavaş düşdüyüm mühitə köklənirəm. Artıq elə bil kimsə, nəsə hər şeyin bu cür səliqəli olacağını mənə yükləyir, məni buna inandırır. Hərəkət etdikcə də mən inandığımın şahidinə çevrilirəm. Biz yolüstü bir stəkan çay içmək üçün hava limanının yaxınlığındakı ailəvi restorana gedirik. Restoranın ətrafında hələ təyyarədə eşitdiyim hava proqnozu yadıma düşür. Biz Naxçıvana eniş edəndə bildirmişdilər ki, muxtar respublikada havanın temperaturu 34 dərəcədi. Elə ki, ailəvi restorana daxil oluruq, bu təbiət guşəsi adama sanki qalın bir paltar, köynək geyindirir, yaşıllığın içərisində itib-batırsan. Müxtəlif ağaclar, xüsusilə çinarlar boy-boya verib. İynə ucu ölçüsündə Günəş şüasını o ağacların dibində görmək mümkün deyil. Su arxları mənə Qarabağı, kəndimi xatırlatdı. Orada da meşədə, talalarda sular öz istədiyi kimi axırdı, burda da sular azad idi, sərbəst idi. Əlimi toxundurduğum yaşıl otlar qəribə bir təəssürat yaradırdı. Sanki uşaq yaddaşımı oyadırdı. Səhərlər üstündə qaçdığım yaşıl otların pıçıltısını mənə eşitdirirdi. Hələ bu bağda səs-səsə verən quşları, onların yaratdığı auranı… Bütün bunları yaşamaq nə qədər gözəldi.

Mən bir daha əmin olurdum ki, insan hər şeyə qadirdir. Boş səhrada da yaşıllıq sala bilər, boş səhraya da su çəkə bilər. Bunlar işin yarısıdı. Amma onu yaşamaq və onun içərisində də özünü yaşatmaq... Mən bunun nümunəsini Naxçıvanda gördüm. Bir məqamı da vurğulamağın yeridi. Bu bağda Azərbaycanın milli məişətinin, milli mədəniyyətinin sənət nümunələri də müştəriləri qarşılayır. Baxıb gülümsəmək, düşünmək və xatırlatmaq ifadə edən nümunələr. İstər təndirə çörək yapan analarımız… istər lavaş bişirən, oxlov tutan, istər kabab çəkən… istər dəvəsinin ovsarını əlində saxlayan… istərsə də süni göldə, fontanın ətrafında həm heykəlləşən, həm də üzən qazlar, qular… O qədər dəqiq ölçülüb-biçilmiş, dizaynı son dərəcə təbii şəkildə, amma adama rahatlıq verən üslubda qurulub burda hər şey ki, ondan göz çəkmək mümkün deyil. Bax, mən də bu cənnətdə yaşadığım çox qısa bir zamanın içərisində gözümün önündən hələ getməyən buludları yarıb üzüaşağı enərkən gördüyüm, müşahidə etdiyim yolu düşünürdüm. O yol məni gözləyirdi. Və mən də o yolun ipucunu əlimdən buraxmaq istəmirdim. Ona görə də doymadığım samovar çayını yarımçıq qoyub "yolçu yolda gərək" deyib maşına tərəf getdim. Qarşıda sorağını duyub, özünü görmədiyim bir yol vardı. O yol məni Əlincəyə aparırdı…

**Əbülfət MƏDƏTOĞLU**
*Əməkdar jurnalist, şair, publisist*
*"Ədalət" qəzeti, 16 sentyabr 2016-cı il*

# Şahmatçılarımız cari ildə keçirilən beynəlxalq yarışlarda, turnirlərdə uğurlu çıxış ediblər

*Naxçıvan Muxtar Respublikası Şahmat Federasiyası 2016-cı ilin ötən dövrü ərzində bir çox uğur əldə edib. Uğurların siyahısında daha çox beynəlxalq turnirlərin olması isə xüsusi vurğulanmalıdır.*



Federasiyanın sədr müavini Emin Hacıyev bizimlə söhbətində dedi: "Muxtar respublikada qədim ənənələrə malik olan bu idman növünün inkişafı üçün hər bir şərait yaradılıb. Bu gün şahmatçılarımızın qazandıqları uğur məhz bunun nəticəsidir. Cari ilin aprel ayında Türkiyənin Kahramanmaraş və Ordu şəhərlərində keçirilən beynəlxalq yarışlarda iki şahmatçımız iştirak edib və uğura imza atıb. Manisa şəhərində keçirilən beynəlxalq yarışda isə 3 kiçikyaşlı şahmatçımızın uğurlu çıxışı diqqətdən yayınmayıb. Qardaş ölkədə may, iyul və avqust aylarında keçirilən yarışlarda, ümumilikdə, 32 zəka sahibimiz qüvvəsini sınayıb və onlardan 13-ü yüksək nəticə göstərərək qalib olub. Ümumiyyətlə, şahmatçılarımız cari ildə keçirilən beynəlxalq yarışlarda, turnirlərdə uğurlu çıxış ediblər. Belə ki, iyul ayında Rusiyanın Yakutiya vilayətində keçirilən Asiya oyunlarında 2, həmin ay Gürcüstanın Poti şəhərində keçirilən şahmat festivalında 6 kiçikyaşlı şahmatçımız Naxçıvanı layiqincə təmsil edib. Avqust ayında isə Rusiyanın Moskva şəhərində təşkil olunan yarışda Sadiq Məmmədov iştirakçı, mən isə hakim qismində iştirak etmişik".

Təbii ki, beynəlxalq arenalarda qazanılan nailiyyətlər idmançılarımızın ölkədaxili turnirlərdə uğurlu çıxışlarından irəli gəlir. Cari ildə zəka sahiblərimiz 10-dan çox yarışda qüvvələrini sınayıblar. Yanvar ayında Biləsuvar rayonunda keçirilən Azərbaycan çempionatının seçmə yarışlarında muxtar respublikadan, ümumilikdə, 21 şahmatçı iştirak edib və finallara 7 vəsiqə qazanılıb. Bakı şəhərində keçirilən Azərbaycan çempionatının yüksək dəstəsində 3 şahmatçımız iştirak edib. Mart ayında 18 yaşadək şahmatçılar arasında Azərbaycan çempionatının final mərhələsi keçirilib və bu yarışda 2 şahmatçımız mübariz çıxışları ilə yadda qalıb.

12 yaşadək şahmatçılar arasında Azərbaycan çempionatının final mərhələsi də bizim üçün uğurlu nəticələrlə yadda qalıb. 4 zəka sahibi ilə çempionatda çıxış edən komandamızın heyətində Seyid Hüseyn 10 yaşlı şahmatçılar arasında III yerə layiq görülüb.

Sentyabr ayında Bakıda keçirilən Dünya Şahmat Olimpiadasında da Naxçıvan şahmat məktəbinin yetirmələri iştirak ediblər. Belə ki, Pərviz Qasımov və Aynur Kətanova Azərbaycanın 3-cü komandasında, Emin Hacıyev isə hakim qismində olimpiadanın iştirakçısı olublar. Pərviz Qasımovun iştirak etdiyi Azərbaycan "C" komandası olimpiadanın C kateqoriyasının qalibi olub. Şahmatçımız 9 oyundan 6 xal toplayıb.

Emin Hacıyev onu da bildirdi ki, bu il Gənclər və İdman Nazirliyi ilə birgə təşkil etdikləri yarışlarda 1000-dən artıq zəka sahibi qüvvəsini sınayıb. Naxçıvan Şahmat Mərkəzində, həmçinin rayonların şahmat məktəblərində keçirilən yarışların əsas məqsədi şahmatı muxtar respublikada kütləvi hala gətirmək, şagirdləri, tələbələri bu sahəyə yönəltmək və onlar arasında istedadlıları seçməkdir. Eyni zamanda iyun ayında keçirilən Naxçıvan Şahmat Mərkəzinin açıq birinciliyi FİDE-də beynəlxalq reytinqli yarışlar sırasında qeydiyyata düşüb.

✍ **Ceyhun MƏMMƏDOV**

***İtmişdir***

Məhərrəmova Səkinə Duvangir qızının adına verilmiş Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi itdiyindən etibarsız sayılır.

**ŞƏRQ qapısı**
Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Kərəm Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1050. Sifariş № 702